## BAKALAVRİAT SƏVİYYƏSİNİN 050408 – “Menecment” İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMININ MƏQSƏDİ

Bakalavriat səviyyəsinin 050408 – “Menecment” ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı”na uyğun və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.07.2020-ci il tarixli F-343-saylı Qərarı ilə təsdiq edilmiş 050408 - “Menecment” ixtisasının Təhsil Proqramı əsasında hazırlanmışdır.

Təhsil Proqramının məqsədləri aşağıdakılardır: - İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir; - Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq; - Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq; - Biznes subyektlərinin təşkili və idarə edilməsi bacarığını aşılamaq; - Biznes və təsərrüfat subyektlərinin təşkilati strukturu və onun formalaşdırılması məsələlərini öyrətmək; - Müəssisə və təşkilatların təşkilati hüquqi formalarına görə onların idarə edilməsinin qanunvericilik bazasının təlqin etmək, onun təşkilati və hüquqi əsaslarını öyrətmək; - İdarəçilik qərarlarının qəbul olunması və onların icraya yönəldilməsi yollarını öyrətmək; - İdarəetmənin alt sistemlərinin formalaşdırılması və onların icrası yollarını öyrətmək.

Peşəkar fəaliyyət sahəsi "Menecment" ixtisası üzrə məzunun peşə fəaliyyətinin sahəsi biznes strukturlarında istehsal, maliyyə, vergi, marketinq, logistika fəaliyyəti, bank, sığorta, qiymətli kağızlar sahəsi və s. hesab edilir.

Peşə fəaliyyətinin obyektləri Mütəxəssisin peşə fəaliyyətinin obyektləri aşağıdakılardır: - Dövlət və bələdiyyə qurumlarının təsərrüfat xidmətləri; - Banklar, birjalar, maliyyə, sığorta şirkətləri; - Məhsul istehsal edən sənaye müəssisələri; - Konsaltinq və digər xidmətləri həyata keçirən müəssisələr; - Biznes və sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə, təşkilat və təsərrüfat subyektləri; - Beynəlxalq biznes, maliyyə, turizm və digər xidmətlər üzrə dünya bazarlarında fəaliyyət göstərən transmilli şirkətlər; - Mövcud qaydalara riayət

olunmaqla müxtəlif təhsil müəssisələrinin iqtisadiyyat, biznes, sahibkarlıq bölmələrində və peşə ixtisasına uyğun strukturlar.

Təhsil Proqramı 050408 - "Menecment" ixtisası üzrə bakalavr hazırlığının həyata keçirilməsi üçün məcburidir.

Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olma-malıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

**İş bazarında mövqeyi**

- 050408 - "Menecment" ixtisası üzrə Təhsil Proqramının məzunları həm Özəl həm dövlət sektorunda idarəetmə, insan resurslarının idarəedilməsi, istehsalın idarəedilməsi, maliyyə, muhasibat, marketinq, tədqiqat və inkişaf, ictimaiyyətlə əlaqələr kimi sahələrdə mütəxəssis olaraq işləyə bilərlər. Eyni zamanda məzunlar menecer, strateji idarəetmə mütəxəsssisi, istehsalat mütəxəssisi, layihələrin idarə edilməsi üzrə mütəxəssis, CEO, CFO, biznes analitik peşələrində işləyə bilərlər.
- Universitet Təhsil Proqrammın bu ixtisas üzrə məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.
- 050408 - Menecment ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan bütün Magistr proqramlarında davam etdirə bilərlər.
- Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunları müstəqil şəkildə həyata keçirə bilərlər.

**Strateji plan**

Qərbi Kaspi Universitetinin 2018-2020- ci illəri əhatə edən qısamüddətli Strateji İnkişaf Planı Universitetin Elmi Şurasının 27 dekabr 2017 – ci il tarixli (Protokol №3) iclasının qərarı ilə təsdiq edilmişdir. 2018-2020-ci illər üzrə qısamüddətlii Strateji İnkişaf Planı "Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında Akkreditasiya və Nostrifikasiya İdarəsinin 12 aprel 2017- ci il tarixli 10 sayılı əmrinə əsasən Qərb Universitetinin akkreditasiyasını həyata keçirmək məqsədi ilə yaradılmış kommisiyanın akkreditasiya nəticələri haqqında yekun arayış" ında qeyd edilən irad və tövsiyələr əsasında tərtib edilmişdir və bu tövsiyələrin aradan qaldırılmasını özündə ehtiva edir.

Qərbi Kaspi Univeristetinin 2021-2025 – ci illər üzrə ortamüddətli Starteji İnkişaf Planı Universitetin Elmi Şurasının 2020-ci il 25 dekabr tarixli iclasının (Protokol № 05) qərarıına əsasən təsdiq olunmuşdur. Bu sənəd Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə İnkişaf strategiyasını əhatə edir. 2021-2025 - ci illər üzrə SİP hazırlanması zamanı ali təhsilin idarə olunması üzrə beynəlxalq təcrübədən, “2019- 2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”ndan, o cümlədən dövlət və özəl müəssisələrdə tələbə və müəllimlər arasında keçirilmiş sorğu nəticələrindən istifadə olunmuşdur.

**ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu**

Qərbi Kaspi Univeristeti 2021- 2025 - ci illər üzrə Strateji İkişaf Planında universitetin müəyyən etdiyi missiyası - qlobal çağırışlara, müasir, innovativ, təhsil və tədris infrastrukturuna malik olmaqla, yüksək ixtisaslı mütəxəssislər hazırlamağı və beləliklə də aşağıda qeyd olunanların daimi inkişafına nail olmağa çalışmasını, onun fəaliyyətinin əsas məqsədini və hədəflərini müəyyənləşdirir.

- Məzunların iş tapmaq imkanlarını artırmaq;
- Xarici dil bacarığı;
- Sahibkarlıq bacarıqlarını artırmaq;
- Şəxsi və peşəkar sahədə yüksək standartlara nail olmaq üçün tam təminatlı iş qabiliyyətinə malik kadrlar yetişdirmək;
- Analitik təhlil bacarığı;
- Elmi tədqiqatlara həvəsləndirici və təkanverici qüvvə olmaq;
- Tənqidi və həll istiqamətli düşüncə tərzi;
- Dünya trendlərindən geri qalmamaqla mütərəqqi olmağa çalışmaq;
- Yüksək akademik yazı qabiliyyəti;
- Müasir dövrdə Respublikanın maraqlarını təmin edə biləcək mütəxəssislər yetişdirməklə Azərbaycanın iqtisadi, sosial və siyasi inkişafına dəstək olmaq;
- Yetərli ixtisas bilikləri;
- Empirik təhlil bacarığı;
- Müəllim-mentor və tələbə-mentor institutlarının bütün universitet üzrə formalaşdırılması;
- İKT-dən istifadə bacarığı;
- Liderlik və komandada işləmə bacarığı;

- Subbakalavr və bakalavr pilləsinə qəbul olan tələbələrin universitetə uyğunlaşdırılmasını təmin etmək məqsədilə “oryentasiya günləri”nin effektivliyinin artırılması, qısamüddətli bir fənnin formalaşdırılması və tədris edilməsi.

**SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu**

2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının hazırlanmasında universitetin strateji baxışı - Regionda əmək bazarının tələblərinə cavab verən ən müasir və keyfiyyətli təhsilin və tədqiqatın mövcud olduğu universitet olmaq, kimi müəyyənləşdirilmişdir. SİP-nin Azərbaycan Respublikasının əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunlaşdırılması məqsədi ilə “Əmək Bazarının Araşdırılması” (Rəqəmsal İnkişaf və Nəqliyyat Agentliyi, Embawood MMC, ATF Şirkətlər qrupu MMC, ABB, Sumqayıt Texnologiyaları parkı MMC, Performance Center CO) üzrə sorğu, “Tədris və Elmi Tətqiqat” üzrə sorğu, “Tələbələrin Məmnuniyyət Sorğusu”, “Distant Təhsil” sorğuları aparılmış və SİP-in hazırlanması bu sorğuların nəticələri nəzərə alınmaqla həyata keçirilmişdir.

**SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu**

Qərbi Kaspi Univeristetinin 2021-2025 ci illər üzrə Strateji İnkişaf Planında universitetin prioritetləri müəyyənləşdirilmiş və bu prioritetlərin onun məqsəd və hədəflərinə uyğunluğu gözlənilmişdir. QKU -nun 2021- 2025 ci illər üzrə SİP – də məzunlara münasibət, dil bacarıqları, sahibkarlıq bacarıqları, şəxsi və peşəkar sahədə peşəkar kadr hazırlığı, analitik və empirik təhlil bacarığı, elmi tədqiqatlara həvəsləndirmə və təkanvermə, tənqidi və həll istiqamətli düşünmə , mütərəqqilik, akademik bacarıqlara yiyələnmə, respublikanın maraqlarını təmin edə biləcək mütəxəssislər yetişdirməklə Azərbaycanın iqtisadi, sosial və siyasi inkişafını dəstəkləmə, müəllim-mentor və tələbə-mentor institutları formalaşdırma, İKT-dən istifadə bacarığı, liderlik, rəqəmsallaşma və innovativ həllərin tətbiqi, beynəlxalq rəqabətliliyin artırılması və s. kimi prioritetlər öz əksini tapmışdır.

Bu prioritetlərə uyğun olaraq Strateji İnkişaf Planında tədrisin keyfiyyətinin yüksəldilməsi; tələbəyə yönümlü inkişaf; tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması; beynəlxalq rəqabətliliyin artırılması, rəqəmsallaşma və innovativ həllərin tətbiqi;

İş mühiti və əmək şəraitinin yaxşılaşdırılması; infrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi; Sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması kimi məqsəd və bu məqsədlər əsasında hədəflər müəyyənləşdirilmişdir. Ümumilikdə, SİP - də müəyyən edilən proirotetlər üzrə 8 məqsəd, 26 strateji hədəf və bu məqsəd və hədəflərə müvafiq olaraq strateji fəaliyyətlərdən ibarətdir. Bundan başqa, univeristetin 2021-2025-ci illər üzrə SİP-də prioritet istiqamətlərin müəyyənləşdirilməsində universitetin Nizamnaməsində qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluq nəzərə alınmışdır.

**Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti**

Universitet tərəfindən hazırlığı həyata keçirilən kadrların əmək bazarında işlə təmin oluna bilmələri istiqamətində QKU-in müvafiq strukturları daim araşdırmalar aparır. Bu işlərin daha səmərəli həyata keçirilməsi ilə əlaqədar QKU-də Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi yaradılmışdır. Bununla yanaşı pedoqoji təcrübəyə malik əmək bazarında çalışan mütəxəssislərin tədrisə cəlb edilmələrinə böyük üstünlük verilir. Həmin mütəxəssislərin əmək bazarında hansı ixtisaslara daha çox ehtiyac olduğu fikirləri öyrənilir və gələcəkdə tələbə qəbulu ilə bağlı sifarişlərin hazırlanmasında nəzərə alınır. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının, İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı nümayəndələri ilə müzakirə aparılmış və qəbul planında nəzərə alınmışdır. Bundan başqa universitetdə mütəmadi olaraq təşkil olunan Əmək yarmarkaları zamanı təhsil müəssisəsinə dəvət olunan işəgötürənlərin də bu istiqamətdə tövsiyələri önəm daşıyır.

Təhsil proqramının ixtisas üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu QKU-də tədrisi həyata keçirilən 050402 - "Biznesin idarə edilməsi" ixtisasınən bakalavriat səviyyəsi üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2020-ci il 343 saylı qərarı ilə təsdiqlənmiş Təhsil Proqramlarının və fənlərin gözlənilən təlim nəticələrininə uyğun həyata keçirilir.

**Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu.**

Tədris planları bakalavriat səviyyəsində 240 (4 il) AKTS kreditdən ibarətdir. Təhsil proqramının tələblərinə uyğun olaraq bakalavriat səviyyəsində

fənlər Tədris planlarında da üç bloka bölünmüşdür. Bu bloklara Ümumi fənlər, İxtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) aiddir. Ümumi fənlər bloku öz növbəsində iki yerə ayrılır məcburi fənlər 24 AKTS və seçmə fənlər 6 AKTS ümumilikdə 30 AKTS. İxtisas fənləri ümumilikdə 120 AKTS və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə 60 AKTS, Təcrübəyə və bununla bağlı fənlərə isə 30 AKTS müəyyən edilmişdir.

QKU-də dərs saatlarının bölgüsü və onun Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" Qaydalarının və 24 noyabr 2010-cu il 215 saylı qərarı ilə təsdiqlənmiş "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları"nın tələbləri qorunmaqla həyata keçirilir. Belə ki, QKU-da professor-müəllim heyətinin bir stat üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla mühazirə, seminar, laborator və praktiki məşğələlərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən, az olmamaqla bölgüsü həyata keçirilir. İxtisasın təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300 kredit müəyyənləşdirilmişdir.

**Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu**

Təhsil proqramında həyata keçiriləcək kadr hazırlığının təmin edilməsi məqsədi ilə tədris olunan fənlər 3 bloka bölünmüşdür. Ümumi fənlər, İxtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər. Təhsil proqramları hazırlanarkən və hər bir ixtisas üzrə fənlərin müəyyənləşdirilməsi zamanı əmək bazarının iştirakçıları ilə məsləhətləşmələr aparılaraq, xarici nüfuzlu universitetlərin təcrübəsi öyrənilərək həyata keçirilmişdir. Fənlərin müəyyənləşdirilməsi zamanı təhsil proqramlarının tələbləri nəzərə alınmışdır. Belə ki, hər bir ixtisas üzrə müəyyənləşdirilmiş fənlər məzunlara hansı bacarığı, səriştəni verəcəyi nəzərə alınmışdır. Fənlərin təlim nəticələri Təhsil proqramının 6-cı-"Proqramın və hər bir fənnin təlim nəticələri" bəndinə uyğun hazırlanmışdır.

**Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti**

QKU-da Tədris Planları hazırlanarkən Ümumi və İxtisas fənləri blokuna ayrılan kredit həcmi və fənlərin sayı AR Elm və Təhsil Nazirliyinin F-343 nömrəli, 09.07.2020-ci il qərarı, F-363 nömrəli 07.08.2020-ci il tarixli qərarı, F-

354 nömrəli 30.07.2020-ci il qərarı və F-383 nömrəli 24.08.202-ci il tarixli qərarları ilə təsdiqlənmiş “Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsil Proqramları”nın tələblərinə uyğun hazırlanmışdır. 050402 - “Biznesin idarə edilməsi” ixtisası üzrə də bu ənənəyə riayət olunmuşdur. Bu da keyfiyyətli mütəxəssis hazırlığına əlverişli şərait yaradır.

**Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti**

Özünütəhlil Hesabatında Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi tərəfindən “Karyera planlaması", "Yumşaq bacarıqlar" və “Sərt bacarıqlar” fənləri üzrə tədrisin həyata keçirilməsinin planlaşdırıldığı bildirilir. Təqdim olunan tədris planlarına baxış zamanı bəzi ixtisaslar üzrə təcrübə proqramlarına bu fənlərin daxil edilməsi müşahidə olunur. 2023-cü ilin oktyabr ayında isə QKU-da CIBS Europe Psixologiya və Təlim Mərkəzinin təsisçisi Təbriz Hacınskinin “Emosional İntellekt-Yumşaq bacarıqlar” mövzusunda təlimi təşkil olunub. Bundan əlavə, rəhbərliklə söhbət zamanı ATM-in 60 şirkətlə aktiv əməkdaşlıq müqaviləsinin olduğu bildirilmişdir ki, həmin şirkətlər və qurumlarla bağlanmış memorandumlar da bizə təqdim olunmuşdur. Belə əməkdaşlıqlardan biri də QKU ilə Sumqayıt Texnologiyalar Parkı arasında Anlaşma Memorandumunun imzalanması ilə bağlı razılığın əldə olunmasıdır.

**Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Sahə səfəri zamanı ATM-də hər il və ya 2 ildən bir əmək yarmarkalarının keçirildiyi və bu yarmarkalarda ən az 40 şirkətin iştirak etidiyi bildirilir.